**Tarix və onun problemləri, №1 2010**

USLU RAMAZAN
*Bakı Dövlət Universiteti aspirantı*

# ERMƏNILƏR OSMANLIDA DÖVLƏT IDARƏETMƏ STRUKTURLARINDA

Türk dövlətlərinin iqtisadiyyatı və ticarətindəki başlıca sahələrdə aparıcı mövqelərə yetişən ermənilər siyasi məqamlara da yiyələnmiş - dövlət idarələrində mühüm vəzifələr tutmuşdular. Və bu yöndə də onlara heç bir maneçilik törədilməmişdi. Osmanlı tarixinin hər səhifəsində bir erməni paşasının, bir erməni səfirinin, bir erməni ümum müdirinin isminə rast gəlmək mümkündür (1)

Burada Osmanlı dövlətçilik tarixi üçün çox səciyyəvi olan bir məsələyə də toxunmaq yerində olardı. Belə ki, tarix boyu osmançılıq düşüncə sistemindən çıxış edən sultanlar qeyri-türklərin yüksək dövlət vəzifələrini tutmalarına nəinki dözüm göstərmiş, hətta buna əlverişli şərait yaratmışdılar. Osmanlı idarəçilik sistemi qeyri-türklərin dövlət qurumlarında geniş təmsilçiliyini əsla əngəlləməmişdi.

Zaman-zaman Osmanlı dövlətinin ən üst qatlarında sədrəzəm, baş dəftərdar, nazirlər, millət vəkilləri və s. sırasında bir çox xalqların xeyli nümayəndəsi yer tutmuşdu. Məsələnin təfərrüatına varmadan, söylədiyimiz bu fikri yetərincə təsdiqləyəcək, bir neçə tarixi faktı xatırlamaqla kifayətlənmək istərdik.

Türkiyə tarixçilərinin (İ.Danişmend, N.Sevinç, C.Anadol və b.) araşdırmalarına (2;s.267-271) görə, 638 illik Osmanlı tarixində (onlar bu müddəti" 1284-cü il Ermenibeli savaşından 1922-ci ildə Tevfik Paşa kabinəsinin istefasından götürürlər) vəziri-əzəm məqamını tutan 215 nəfərdən 78-i türk (15-nin isə türklüyü ehtimal edilir), 137-si başqa millətlərin nümayəndələri olmuşlar.

169 illik "Türk vəzirlər dövrü"ndən (1284-1453) fərqli olaraq 469 illik kosmopolit (dönmə-devşirmə) Osmanlı dönəminin (1453-1922) vur-tut 139 ilində vəziri-əzəmlər türk olmuşdur. Bütövlükdə isə 638 illik Osmanlı tarixində türklər 308, qeyri-türklər isə 330 il vəziri-əzəm vəzifəsini tutmuşlar.

Tarixi 1324-cü ildə Qaramürsəl bəyin təyinatı ilə başlayan və 1867-ci ildə Bəhriyə (Dəniz) nazirliyi ilə əvəzlənməsinədək davam edən Kapitan Dərya (Dəniz Qüvvələri Komandanı) məqamını tutan 161 nəfərdən 43-ü (18-nin də ehtimalı var) türk olmuşdur. 1459-cu ildən 1835-ci ilə qədər (376 il) fəaliyyət göstərən Başdəftərdarlığa (Maliyyə Nazirliyinə bərabər tutulurdu) 54 türk (166 nəfərdən) başçılıq etmişdir.

372 il (1464-1836-cı illər) müddətində fəaliyyət göstərən Rəis-ül Küttablığa (Xariciyyə Nazirliyinə bərabər tutulur) 104 nəfər rəhbərlik etmişdir ki, onların da yalnız 41-nin türk olması məlumdur.

Osmanlı tarixi ayrı-ayrı dönəmlərdə ermənilərin də çoxlu mühüm dövlət vəzifələrini tutmalarına dair sənədlər(3) faktlarla zəngindir. Və bu hal türklərlə yanaşı ermənilər tərəfindən də dəfələrlə qələmə alınmışdır. "Bugünkü Ermənistanı Türkiyə qurdu" deyən türk tarixçisi Əli Heydər Əmir yazır: "Heç bir xalqın, türk idarəsində ermənilər qədər rahat və hörmətlə yaşamadığını bir çox ermənilər hər zaman təkrarlamışlar və bunu minnətdarlıqla anmışlar. On birinci yüzillikdə imperator sarayına girən erməni on ikinci yüzilliyin sonuna doğru nazirlər sırasına girmişdir"(4;s.49-50)

XX əsrin 70-ci illərinin sonlarında erməni terrorçu təşkilatlarının Türkiyə diplomatlarına qarşı vəhşiliklərinin genişləndiyi, "erməni soyqırımı" təbliğatına yeni təkan verildiyi bir vaxtda Türkiyədəki Yeddiqüllə erməni xəstəxanasının baş həkimi Karapet Arman "Tərcüman" qəzetinin 1978-ci il 13 iyun tarixli sayındakı məqaləsində yazırdı: "Osmanlı imperatorluğu dövründə türk-erməni münasibətləri ən gözəl dövrünü yaşa-

mışdır. Osmanlı tarixinin hər səhifəsində bir erməni paşasının, bir erməni səfirinin, bir erməni ümummüdirinin isminə rast gəlmək mümkündür".

Tarixi sənədlərdən toplanan faktlardan bəlli olur ki, Osmanlı ermənilərindən 29-u paşa, 22-si nazir (özü də xarici işlər, maliyyə, ticarət, rabitə kimi aparıcı sahələrdə), 31-i millət vəkili, 7-si səfir, 11-i baş konsul və konsul, 11-i universitet müəllimi vəzifələrini tutmuş, 142-si müxtəlif nazirliklərdə yüksək məqamlara yiyələnmişdi(5;s.19-20)

Erməni əsilli Osmanlı tələbələrində Mehmed Paşanın XVI əsrdə vəzir(5;s.4), Xəlil Paşanın isə iki dəfə (1616-1619 və 1626-1628-ci illərdə) sədrəzəm, dörd dəfə də (1608-1623-cü illər arasında) Dəniz Qüvvələri Komandanı(6;s.457-470)rütbələrinədək yüksəlmələri məlumdur. Osmanlı Dövləti üçün çox ağır və məsuliyyətli bir zamanda (1912-1913-cü illərdə) Xarici işlər naziri erməni (Q.Noradunkyan) olmuşdur.

Çox önəmlidir ki, Osmanlı idarəçiliyindəki yetərli erməni təmsilçiliyi elə onların araşdırmaçılarının tədqiqatlarında da etiraf olunmuşdur. Osmanlı tarixinə müraciət edərək çoxlu erməni əsilli dövlət adamları haqqında məlumatlar verən rahib-tarixçi Y.Çarkın araşdırmalarının nəticələrindən aydın olur ki, XVIII əsrdə Divrikli Düzyan soyundan Dərbxana nazirləri, XIX yüzillikdə Vezciyan ailəsindən Dərbxana müdirləri, Dadyan nəslindən Barıtxana nazirləri, II Əbdülhəmid zamanı və sonralar digər soylardan yüksək rütbəli diplomatlar və s. fəaliyyət göstərmişdilər.(8;s.47-65-75-129)

Y.Çark "Tənzimatı ermənilərin qızıl dövrü" kimi dəyərləndirərək yazırdı ki, ən əlverişli saydığımız bu dövrdə ermənilər hər sahədə irəli gedə bildilər, özlərini tanıdaraq hökumətdən təhlükəsizliklərinə təminat və etimad qazanıb yüksək mövqelərə qədər çıxa bildilər, hətta bir çox sahələrdə rumları belə keçdilər.(8;s.47-65-75-129)

XIX əsrin 20-ci illərində Qərbin bəzi dövlətləri və Rusiya tərəfindən dəstəklənən üsyanların nəticəsində Yunanıstanın Osmanlıdan ayrılması ilə imperatorluğun idarəçiliyində ermənilərin mövqeləri daha da möhkəmlənməyə başladı. Buna Tənzimat (Gülhanı Xətti Hümayünü - 1839) və İslahat (1856) fərmanları da mühüm təsir göstərdi.

Osmanlı dövlətinin bu kimi islahatlarından və habelə, avropalı professor Wamberyinin İngilis Erməni Dərnəyinin fəaliyyəti barədə 1893-cü ilin yanvarında "Pester Lloyd"da dərc etdirdiyi məqalədə yazdığı "Sultan Həmid imperatorluq içində əhalinin din və milliyyətini ayırd etməməkdədir"(3;) kimi mövqedən yetərincə faydalanan ermənilər qanunverici hakimiyyətdə kifayət qədər təmsil olunmuşdular.

Birinci Məşrutiyyət Məclisində (1876-cı il) fəaliyyət göstərən 48 millət vəkilindən 9-u erməni olmuş və hətta parlamentin sədr müavini (Məclisi Məbusan Rəis Vəkili) vəzifəsinə də erməni (Ohannes Allahverdi) seçilmişdi.(5;s.19) İkinci Məşrutiyyət Məclisinə (1908-ci il) seçilən 276 nəfərin 49-nu qeyri-müsəlmanlar, o cümlədən də 11-ni ermənilər təşkil etmişdi. 1914-cü il Məclisində isə 11 erməni vardı.(7;s.121)

Sözgəlişi bunu da qeyd edək ki, 1908-ci il Məclisinin üzvlərindən üüğ (H.Boyacyan, V.Papazyan, Q.Pasdırmacyan) Birinci Cahan savaşı dövründə silahlı quldur dəstələri yaratmış və Şərqi Anadolunu işğal edən rus qoşunları ilə birlikdə bölgənin türk-müsəlman əhalisinə qarşı vəhşiliklər törətmişdi. Q.Pasdırmacyanın "məşhur" Andraniklə birgə fəaliyyəti ilə xüsusi olaraq fərqlənmişdi.

Osmanlı dövlətçiliyinə dair çoxlu sənədlər (fərmanlar və s.) qeyri-müsəlmanların, xüsusilə də ermənilərin idarəçilikdə təmsilçiliyinə əlverişli zəmin yaratmışdı. Hətta bütün vətəndaşlar üçün nəzərdə tutulan haqlarla yanaşı, ermənilərə müəyyən güzəştlər də edilmişdi.

Tənzimatönü, habelə Tənzimat və İslahat fərmanları, 1876 və 1908-ci il Konstitusiyaları bu fikirləri yetərincə təsdiqləyir. Astarciyanın "Erməni milli tarixi" əsərindən və bəzi qaynaqlardan da göründüyü kimi, sultan hökuməti erməniləri hətta Konstitusiya-

nın hazırlanması işinə də cəlb etmişdi.(9;s.14) Belə ki, Midhət Paşanın dəvəti ilə K.Odyan Əfəndi bu işə qatılmışdı.

Ermənilərin Osmanlı idarəçiliyindəki təmsilçiliyi Sultan II Əbdülhəmidin dövründə daha geniş miqyas almışdı.(3)

Bu barədə sultanın xatirələrində(7;s.32-33) də ətraflı bəhs olunmuşdur. Həmin xatirələrdən və həmçinin, E.Z.Karalın "'Osmanlı tarixi"ndən (VIII c.) II Əbdülhəmid dönəmində Osmanlı məmurlarının 1/3-ni ermənilərin təşkil etməsi bəlli olur.(3) Dövlətin və bilavasitə sarayın idarəçiliyindəki çoxlu erməniləri qeyd edən sultan olduqca vacib sahə və məqamların onlara məxsusluğunu önə çəkmişdi(10;s.150-151)

- hətta dövlətin həyatı demək olan hərbi ləvazimat mühümlərindən barıtın hazırlanması belə onlara verilmişdi;
- sarayın maliyyəsi və Zərbxana onların idarəsində idi;
- Əli və Fuad paşaların sədrəzəmlikləri dönəmində xariciyyəyə tamamilə erməni məmurlar təyin olunmuşdu.

İstanbuldakı ingilis səfiri Layardın Böyük Britaniyanın xarici işlər naziri Qraf Derbyeyə yolladığı 1877-ci il 28 və 29 dekabr tarixli, 1523 və 1526 saylı məktublardan (19a) (həmin sənədlər İngiltərə XİN-in arxivində - Foreign Office (F.O.), 424/66," s.24, №51; s.32, №70 saxlanılır) isə bunlar məlum olur: II Əbdulhəmidin yavərlərindən 5-i xristian idi; onların arasında ermənilər Ellias, Mirhan bəyin oğlu və digərlərinin də adlarına rast gəlinir; Ellias yavərlikdən əvvəl Osmanlı Xarici İşlər nazirliyi arxivində dairə müdiri işləmişdi.

"Milləti sadıka"nın Osmanlı dövlətində möhkəm mövqelərə sahib olmasını açıqlayan bir məsələ də vardır. Araşdırmaçı M.Nalbantoğlunun(12;s.117) xüsusi olaraq vurğuladığı və arxiv sənədlərinin də təsdiqlədiyi kimi, Tənzimatdan sonra bəzi yüksək dövlət vəzifələri, hətta ermənilər üçün atadan oğula keçən mirasa çevrilmişdi. Bu məsələ və ələlxüsus da ermənilərin Xariciyyə Nəzarətini, demək olar ki, büsbütün ələ keçirmələri* Osmanlı dövləti üçün ciddi problemlər doğurmaqda idi.

Məhz bu cür durumun yaratdığı rahatsızlıqlara görə də 1879-cu ildə hazırlanan sənəddə - Berlin müqaviləsinin 61-ci maddəsinə əsasən Osmanlıda aparılacaq islahatlara dair sultana verilən raportda(3;) bir mühüm məsələ başlıca hədəflərdən biri kimi dəyərləndirilmişdi: "Xariciyyənin islahı (müsəlmanların bu görəvə təyinləri)".

Yeri gəlmişkən, Osmanlıda yüksək məqamları tutanların milli mənsubiyyəti məsələsinə önəm verilməməsi, XIX əsrin sonlarına doğru onunla yaxınlaşmaq siyasəti yürüdən, Almaniya və Avstriya - Macarıstan dövlətlərinin də diqqətindən kənarda qalmamışdı. Həmin dövlətlərin başçıları hətta Osmanlı sarayına müəyyən tövsiyələr də vermişdilər.

Osmanlının yüksək rütbəli dövlət adamlarının (marşal Nizami Paşa ilə Mehmet Rəşit bəy) Berlində imperator və Bismarkla, Vyanada imperator və baş nazirlə, habelə hər iki xarici işlər naziri ilə söhbətlərindən sonra sultana verdikləri 1882-ci il 17 yanvar tarixli raport(13;) bu baxımdan maraq doğurur. Bu sənəd adları çəkilən dövlətlərin müvafiq mövqelərini ifadə edən fikirlərlə diqqəti cəlb edir. Həmin fikirlər sırasından birini vurğulamaq istərdik: "İstifadə ediləcək məmurların türk olmaları gərəklidir".

Ermənilərin Osmanlı idarəçilik sistemində üstün mövqelərə malik olmaları həmin dövrdə ABŞ və Avropadakı azlıqların müvafiq durumları ilə müqayisədə özünü daha qabarıq şəkildə büruzə verirdi. "Çikaqo Herald" qəzetinin 1894-cü il 16 iyun tarixli sayında "tərəfsiz" imzası ilə gedən "Xalqın səsi. Türkiyədə erməni məsələsi" başlıqlı yazıdakı fikirlərə nəzər salaq.

Haqqında Osmanlının Vaşinqtondakı səfiri Mavroyeni bəy tərəfindən xariciyyə naziri Səit Paşaya 1894-cü il iyunun 25-də 7153/60 saylı məktub(13;) vasitəsi ilə məlu-

mat verilən bu məqalədə Türkiyədə xeyli erməninin dövlət işində, məhkəmələrdə və s. yerlərdə vəzifələr tutmaları göstərilir, yəhudilər və digərlərinin heç ABŞ-da belə bir imkana malik olmamaları yazılırdı. Məqalədə daha sonra deyilirdi ki, ermənilərin Türkiyədəki bu cür durumu və imkanları oradakı ədalət və toleransla bağlı idi; onlar tərəfindən bunun əksinin söylənilməsi isə iftiradır.

Araşdırmalarından əvvəldə də bəhs etdiyimiz Hindistan Ədliyyəsinin yüksək rütbəli məmuru Əmir Əli və avropalı professor Wamberyi də Osmanlı idarəsində ali məqamlara yiyələnən çoxlu ermənini sadalayaraq müvafiq müqayisələr aparmışlar. Əmir Əli 1895-ci ildə "Nineteen Century" qəzetində dərc etdirdiyi "İslam və qarşısında olanlar" məqaləsində erməni və digər əsilli diplomatlardan bəhs etmişdi: "Osmanlı ölkəsində Rüstəm, Qara Todori, Mikail, Artin paşalar kimi bir çox xristian ən böyük mövqelərdə bulunmaqdadırlar".(13;)

Professor Wamberyi "Budapeşti İzemle"dəki (1895-ci il) məqaləsində(14;) Osmanlıda "bu gün bir çox erməni əsilli yüksək rütbəli şəxs vardır. Portakal Əfəndi maliyyənin başındadır. Artin Paşa Dış işlərində ümumi katibdir. Qabriel Əfəndi, İlyas Əfəndi xariciyyədə yüksək mövqedədirlər" yazmaqla yanaşı, "halbuki Avropada yəhudi əsilli çox az nazir görülmüşdür" fikrini vurğulamışdı.

Osmanlının yüksək rütbəli dövlət məmuru Təhsin Paşa da sultanın islahat layihəsinin tədqiqi ilə bağlı 1895-ci ildə hazırladığı direktivlərdə yaxın keçmişdə Türkiyədən İngiltərəyə keçən Misirdə müsəlmanların çoxluq təşkil etdikləri halda nazirlərin erməni və məmurların çoxunun xarici olduğunu bir daha xatırlatmışdı.(3;)

Osmanlı dövlətində mühüm vəzifələr tutan bəzi ermənilər

| | |
|---|---|
| Agop Gırcikyan | Osmanlı imparatorluğunun ilk elçisi (Paris) (1834) |
| Krikor Agaton | Osmanlı Xarici İşlər Nazirliyində Umumi Müdür (1848-1850) |
| Sahak Abro | Xarici İşlər Nazirliyində katib (1850) |
| Sebuh Laz Minas | Parisdəki Osmanlı səfirliyində Katip (1863) |
| Krikor Odyan | Xarici İşlər Nazirliyində katib (1870) |
| Serkis Efendi | Xarici İşlər Nazirliyində məxfi şöbəinin katibi (1870-1871) |
| Ovakim K. Reisyan | İstanbul Vize qəsəbəsinin Məhkəmə Rəisi (1879)<br>Sakız Adası İhzari Məhkəmə Rəisi (1885)<br>Rodos Adası İhzari Məhkəmə Rəisi (1887) |
| Artin Dadyan Paşa | Xarici İşlər Nazirliyində müşavir (1880) |
| Diran Aleksan Bey | Osmanlının Belçikada Səfiri (1862) |
| Yetvart Zohrab Efendi | Osmanlının Londonda Səfiri (1838-1839) |
| Hırant Düz Bey | Osmanlının İtalyada Səfiri (1900-1907) |
| Hovsep Misakyan Efendi | Osmanlının Avropa dövlətlərində Elçisi (1900-1907) |
| Sarkis Balyan | İtalyada Türk Konsulu (1900) |
| Azaryan Manuk Efendi | Xarici İşlər Nazirliyində müşavir |
| Kapriyel Noradunkyan | Osmanlının Xarici İşlər naziri (1912) |
| Agop Kazazyan Paşa | Osmanlının Maliyyə naziri |
| Mikael Portugal Paşa | Maliyyə Nazirliyndə müşavir (1886)<br>Dövlət Xəzinədarlığı naziri (1891) |

| | |
|---|---|
| Sakız Ohannes Paşa | Xarici İşlər Nazirliyində katib (1871)<br>Dövlət Xəzinədarlığı naziri (1897) |
| Garabet Artin Davut Paşa | Osmanlının Viyanada Səfiri (1856-1857) |
| Krikor Sinapyan | Maliyyə naziri |
| Krikor Ağaton | Xarici İşlər Nazirliyində müşavir (1864) |
| Jorj Serpos Efendi | Rabitə Nazirliyində katib (1868) |
| Osgan Mardikyan | Dövlət Nəzarati Naziri (1913) |
| Tomas Terziyan,<br>Nişan Guğasyan,<br>Tavit Çıracıyan | Maliyyə Nazirliyinin katbləri |
| Krikor Zohrap,Bedros Hallacıyan | İstanbul valiliyində məmurlar |

Yuxarıda qısa şəkildə toxunduğumuz məsələlər və istinad etdiyimiz tarixi sənədlərdəki faktlar Osmanlı dövlətinin "hüquqsuz təbəələri", "yazıq erməni" kimi baxışların (əslində isə uydurmaların) əsassızlığını təkrarən təsdiqləməyə imkan verir. Osmanlı dövlətinin idarəçiliyində əsas aparıcı məqamlara yiyələnən ermənilər bu və digər amillərin təsiri ilə xeyli qüvvətləndilər. Bu isə Osmanlını parçalamağa yönəlmiş fəaliyyətlərin daha da gücləndirilməsi və genişləndirilməsi işində onlara əlavə imkanlar yaratmış oldu.

## ƏDƏBİYYAT

1."Tercüman" qəzeti (Türkiyə), 13 iyun 1978-ci il.
2.Sevinç. Osmanlının Yükselişi ve Söküşü. İstanbul, 1991.
3.Türkiye Cümhuriyeti Başbakanlık Osmanlı Arşivi (BOA), Dosya: Yıldız Evrakı no: Kısım - 36, Zarf - 152, Evrak no: 131/41, Karton no: 8; Yıldız Evrakı, Zarf-156, iç no: 24
4.N.Banoğlu, Ermeninin Ermeniye Zülmü (Belgeleri ile), Ankara, 1976
5. Geçmişden bugüne türk-ermeni ilişkileri. Ankara. 1989. - S.19-20; Türk Ermenilerinden gerçekler.İstanbul, 1980.
6.N.Sevinç. Osmanlının Yükselişi ve Söküşü. İstanbul, 1991
7.M. Sadi Koçaş. Tarihte Ermeniler ve türk-ermeni ilişkileri. Ankara, 1990.
8.Y.Çark. Türk Devletleri Hizmetinde Ermeniler, 1453-1953. İstanbul, 1953.
9.Osmanlı Arşivi. Yıldız tasnifi. Hrmeni meselesi. Talori olayları, C. 1, s. XV; N.Banoğlu. Ermeninin Ermeniye Zülmü (Belgeleri ile). Ankara, 1976.
10.Belgelerle türk tarih dergisi (B.T.T D.). 1968, №8.
11.Bilal N. Şimşir. İngiliz belgelerinde Osmanlı ermenileri (1856-1880), İstanbul, 1986.
12.M.Nalbantoğlu. Türklere karşı ermeni vahşeti: Dün Türkiye, bu gün Azerbaycan. İstanbul, 1992.
13.Yenə orada, Hariciye Nezareti, Endikatür, Siyasi-III, Karton no: 280, iç no: 18, Evrakno: 6946/47.
14.T.C, BOA, Dosya: Yıldız. Evrakı, Dosya no: Kısım-36, Zarf-152, no: 131/41, Karton no: 8; Osmanlı Belgelerinde Ermeniler (19.VII-15.VIII.1895). İstanbul, 1991, s. X; T.C. BOA, Yıldız Evrakı, Zarf no: 15, iç no: 24

**Tarix və onun problemləri, №1 2010**

**УСЛУ РАМАЗАН**
***Бакинский Государственный Университет***

## ПОЗИЦИИ ЗАНИМАЕМЫЕ АРМЯНАМИ В ОСМАНСКОЙ ИМПЕРИИ.

Исторические документы показывают что, армяни проживавшие в Османской Империи занимали посты министров и генералов. В Османской Империи было 22 министров, 31 депутатов,7 послов,11 консулов и 11 преповователей ВУЗов и 29 генералов армииол. 142 армянина занимали важные позиции или работали в различных министерствах. Реформы танзимата благоприятно повлияли на положении армян в Османской Империи.

**USLU RAMAZAN**
***Baku State University***

## THE POSITIONS TAKEN BY ARMENIANS IN THE OTTOMAN EMPIRE

Historical documents show that Armenians who live in the Ottoman Empire work as ministers and generals. There are 29 generals in the army and 22 ministers, 31 deputies, 7 ambassadors, 11 consuls, 11 university teachers in the Ottoman Empire. 142 armenians work in different ministries or important positions. According to the historians tonzimat is a fold period for Armenians.

***Rəyçilər: t.e.n.A.A.Məmmədli, t.e.d.Q.Ə.Əliyev.***
***BDU-nun Tarix fakültəsinin «Asiya və Afrika ölkələri tarixi» kafedrasının 18 mart 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***